## Şəddat CƏFƏROV - 85

# İLK POLİQRAFÇI ALİMİN QÜRUR YOLU



*Leyla MƏCİDOVA,*
***Lənkəran Dövlət Universitetinin dosenti,***
***tarix üzrə fəlsəfə doktoru,***
***Lənkəran Tarix Diyarşünaslıq muzeyinin direktoru***

***Bu doğma vətənin bircə qış günü,***
***Yaxşıdır qürbətin yüz baharından.***
**Nəbi XƏZRİ**

Epiqrafa çəkdiyim poetik duyğulanmanın mənası hər kəsə aydındır. Çünki, burada danılmaz bir həqiqət var; müxtəlif səbəblərdən lap elə dolanışıq ucbatından qürbətdə yaşamağa məcbur olan hər kəsin varlığında vətən həsrəti heç vaxt solub getmir. Lap elə yüksək vəzifə tutsa da, çoxlu pul, var-dövlət qazansa da vətən göynəmi onu tərk etmir. Vətən sevgisinin ilk qaynağı yaddaşla bağlıdır. Hər kəs bu sevginin varlığında yaşamasını həyatının mənası hesab edir. Əlbəttə qəlbində varlığında vətən sevgisi olanlardan söhbət gedir.

Mənim ədəbi qəhrəmanım Şəddat Cəfərov da həyatının xeyli hissəsini vətəndən uzaqlarda yaşamalı olur. 1985-ci ildə Sovetlərin mərkəzi rəhbərliyinin göstərişi ilə onu Ulyanovsk şəhərinə göndəriblər. O, burada istehsalat göstəriciləri sıfıra enmiş, heç bir gəlir gətirməyən "Ulyanovskaya pravda" nəşriyyatına direktor təyin olunmuşdur. Deməli bu nəşriyyat mərkəzin xüsusi nəzarətində olub. Şəddat müəllim az vaxt içərisində nəşriyyatın işlərini qaydaya qoya bilir. Yüksək nizam-intizamın yaradılması, güclü mütəxəssislərin işə cəlb olunması sayəsində nəşriyyat altı aya Ümumittifaq əhatəsində tanınır. Yüksək dərəcəli sifarişlər alınır. Nəşriyyat yüksək mənfəətlə fəaliyyət göstərir. Şəddat müəllim burada böyük ad və san qazanır. Şəhər və vilayət rəhbərləri onu diqqətdə saxlayır, qayğı göstərirlər. Ancaq, həyatın ritmi sovetlərin siyasi həyatında böyük dəyişikliklər yaradır. Azərbaycan daha ağır zərbə altına düşür. Dağlıq-Qarabağ da separatçılar meydan sulamağa başlayır. Ən acı təssüf doğuran məsələ bu idiki, azərbaycanın özündə xaos başlamışdır. Azərbaycanın ərazisini qorumaq əvəzinə Bakıda mənsəb davası həddini aşmışdır. Belə bir vaxtda Şəddat müəllim vətəni üçün çox narahatlıq keçirirdi. Azərbaycan həqiqətlərini Rusiyada rusiyalılara çatdırmaq üçün əlindən gələni əsirgəmirdi. Müxtəlif tarixi məlumatları çap edir, müvafiq əhatə dairəsində yayırdı.

Yuxarıda qeyd etdim ki, Şəddat müəllimin işlədiyi şəhərdə böyük hörməti və nüfuzu vardı. Amma, öz ölkəsindəki hadisələrin gərginliyi onu çox narahat edirdi. O, şəhər rəhbərliyinə müraciət edib Azərbaycana qayıtmaq istədiyini bildirdi. Xalqının, vətəninin ağır günlərində doğmalar arasında olmağı özünə borc bilirdi. Ona görə də Azərbaycana qayıtdı.

Bu gün görkəmli mətbuat xadimi yazıçı, publisist, ilk poliqrafçı alim kimi tanınan Şəddat Muğdat oğlu Cəfərov 1940-cı ildə Bakıda anadan olub. Atasını İkinci Dünya müharibəsi dövründə orduya səfərbər edirlər. Çətin dolanışıq, ağır güzəran ailəni çıxılmaz vəziyyətə salır. Ona görə də anası uşaqlarını da götürüb kəndə qayıdır; Lənkəran rayonunun "Gərmətük" kəndinə. Təhsilin ilk illərini kənddə oxuyur. Atası müharibə veteranı kimi, müharibədən sonra qayıdır. Və ailə yenidən elə məhz dolanışığa görə Bakıya köçür. Şəddat müəllim yeddinci sinifi bitirəndən sonra işləmək üçün istehsalata gəlir. O vaxtki "26 Bakı komissarı" mətbəssində əmək fəaliyyətinə başlayır. Sinkoqrafiya sexində usta köməkçisi kimi. Ancaq, o təhsilini də unutmur. Fəhlə gənclər məktəbində oxuyur. Orta təhsilini bitirdikdən sonra hərbi xidmətə çağrılır. Hərbi xidmətdə də fəallığı ilə fərqlənir. Serjantlıq və zabitlik kurslarını bitirir. O, hərbi xidmətini xarektercə möhkəmlənmiş, bacarıqlı, bütöv bir şəxsiyyət kimi başa vurur. Hərbi xidmətdən sonra, yenə doğma kollektivinə qayıdır. Burada da əməkdə fərqlənir. Hamı onu gənc fəal, ictimaiyyətçi kimi tanıyır. Beləliklə, o istehsalatdan ayrılmadan orta ixtisas təhsili alır, sonra ali məktəbi uğurla başa vurur. Onun biliklərə səylə yiyələnməsi elmi mənəvi inkişafına təkan verir. Sonralar poliqrafiya sahəsindəki biliklərini ümumiləşdirir, elmi məqalələrlə çıxış edir. Nəhayət, seçdiyi mövzu üzrə elmi işini uğurla müdafiə edir və iqtisad elmləri üzrə fəlsəfə doktoru olur.

Şəddat müəllim artıq Azərbaycanda yaxşı tanınırdı. Onun mətbuata dair səmərələşdirici təklifləri poliqrafiyamızın inkişafında böyük əhəmiyyət kəsb edir. Azərbaycanda müxtəlif vəzifələrə irəli çəkilib, Yeni kitab mətbəəsinin direktoru olub. İndiki "Azərbaycan" nəşriyyatında məsul vəzifə tutub. O, təbiət etibarı ilə yenilikçidir. Poliqrafiya sahəsi üzrə biliklərini, elmi əsərləri, mühazirələri ilə həmkarlarına çatdırıb. Elə bu gündə, bu öyrədicilik fəaliyyətindən geri qalmır.

Şəddat müəllimi tanıyanlar, onun işgüzarlığını həmişə yüksək qiymətləndiriblər. 1991-1992 - ci illərdə 3 saylı Bakı kitab mətbəəsində direktor, 1992-1993 cü illərdə "Azərbaycan" nəşriyyatının direktoru, Ensklopodiya nəşriyyat poliqrafiya birliyində baş direktorun müavini, "Göytürk" mətbəəsinin direktoru, 1994 cü ildən ofset çap kombenantında direktor, 1998 ci ildə "Şans" nəşriyyat poliqrafiya mərkəzinin direktoru vəzifələrində çalışıb. 2002 ci ildən isə Bakı mətbəəsi ASC nin direktoru vəzifəsində işləyir. Şəddat Cəfərov həmdə çox istedadlı yazıçı jurnalistdir. Yaradıcı fəaliyyətindən geri qalmır. Bir-birinin arxasınca elmi ədəbi, publisist əsərləri ardıcıl olaraq nəşr edilir.

Yeri gəlmişkən, burada bir faktı da xatırlatmaq istəyirəm. O hələ "Azərbaycan" nəşriyyatına rəhbərlik etdiyi dövrdə Ulu Öndərin Naxçıvandakı fəaliyyətini işıqlandıran kitabı cəsarətlə nəşr edib. Hətta buna görə ona təzyiq və təhdidlər də olub. "Naxçıvan yaşayır, döyüşür" adlı həmin kitab onun həqiqət naminə fədakarlığın göstəricisi kimi çox dəyərlidir. O, Heydər Əliyevi qlobal dünya sistemində qüdrətli lider kimi tanıyır, sevir, təbliğ edirdi. Bu gün də Ulu Öndərin xatirəsinə sevgisi ilə fəxir edir.

Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı Ş.Cəfərovun "Əzəldən bağlıyam sözə" kitabının III cildinə yazdığı rəydə qeyd edir: *"Çoxlu yazarlar tanıyıram ki, yaşının müəyyən həddinə gələn kimi qələmi yerə qoyur. Sanki*





*mənəvi mühitindəki yaddaş saxlancının hamısını işlətmiş kimi görünür. Əgər insanın sağlamlığı yerindədirsə, düşüncə imkanı varsa, o öz üzərində işləməklə daim cəmiyyətə yeni söz demək imkanlarını səfərbər edə bilər, bunun üçün gərək ağır zəhmətə qatlaşa biləsən. Mən Şəddat Cəfərovu cəmiyyətin mənəvi mühitinə doğ-ma insan hesab edirəm. O, sözün həqiqi mənasında, fəda-kar bir ziyalı olaraq tanınır. Güclü informasiya axınının qarşısında mətanətlə dayanır. Əgər belə demək mümkünsə, daha mənim vaxtım keçib, qoy sözü cavanlar desin kimi mənasız hökmlərə tabe olmur Son illərdə Şəddat Cəfərovu biz daha fəal görürük. Doğ-rudur, onun jurnalistlik fəaliyyəti, cəmiyyətin sosial prob-lemləri ilə bağlı publisistik yazıları həmişə diqqətdə olub. Amma son vaxtlar ədəbi bədii kitablara yazdığı rəylər mü-nasibətini ədəbi düşüncələrlə ifadə etmək imkanlarının üzə çıxması göstərir ki, o hələ cəmiyyətə axıracan sözünü deməyib".* Bəli mən də bu qənaətə inanıram.

Çünki Şəddat müəllim ədəbi mühiti yaxşı tanıyır. Yeni yaradıcılıq istiqamətlərini də diqqətlə izləyir. Düşünürəm ki, professor M.Allahmanlının qeyd etdiyi kimi, Şəddat müəllim bundan sonra da maraqlı ədəbi düşüncələri ilə sözsevərləri məmnun edəcək. Biz onun yeni, maraqlı kitablarını gözləməkdəyik.

*(Davamı 11-ci səhifədə)*

# İLK POLİQRAFÇI ALİMİN QÜRUR YOLU

*(Əvvəli 10-cu səhifədə)*

Ayrı-ayrı məqalələrində Ulu Öndər haqqında həvəslə söhbət açır. Maraqlı xatirələrini yeni nəsil oxucularla bölüşür. Şəddat Cəfərovun həyat və yaradıcılığını əks etdirən çoxlu kitablar yazılıb. Yazıçı publisist Ağəddin Mənsurzadə "Atalar üçdən deyib" adlı ədəbi-publisist əsərini onun zəngin həyat və yaradıcılığına həsir edib. Şair Elşad Səfərli onun ömür yolundan bəhs edən poemasını qələmə alıb. Fatma Həsənqızı "Acılı, şirinli günlər" sənədli romanını Şəddat Cəfərovun həyatına həsir edib. Sevda Əlibəyli sənədli publisistik "İlk poliqrafçı alim" kitabında Şəddat Cəfərovuun maraqlı mütəxəssis və ziyalı obrazını yaradıb. Onun haqqında mətbuat işçiləri maraqlı xüsusi buraxılışlar hazırlayıblar.

"Böyük portretin işığı" iki cildlik ədəbi publisistik kitabında Əli Rza Xələfli və Ceyhun Zallı, Şəddat Cəfərovun həyat yolunu örnək olaraq təqdir edir və bir insan kimi zəngin aləmindən həvəslə bəhs edirlər.

Azərbaycanın görkəmli alimləri, mötəbər söz sahibləri Ş.Cəfərovun yaradıcılığını həmişə diqqətdə saxlayıblar. Onun haqqında yazılan kitablara məmnuniyyətlə redaktorluq ediblər, rəylər yazıblar.

Filologiya elmləri doktoru, yazıçı-publisist Elçin Mehrəliyev Ş.Cəfərov haqqında Ə.R.Xələfli və C.Zallının "Böyük portretin işığı" kitabına yazdığı ön sözdə düşüncələrini oxucularla belə bölüşür: *"Qəhrəmanlar təkcə özləri üçün yaşamırlar, onlar ömürlərini cəmiyyətin yaşaması naminə sərf edir, bəzən qurban verirlər. Bir sözlə, sağlam düşüncə ilə silahlanmış insanlar əslində dünyanın mənəvi harmoniyasını təmin edirlər. Görünür, Şəddat Cəfərovun özü də elə qəhrəmanların həyatlarını məhz bu cəhətlərinə görə tərənnüm etməkdən yorulmur. 20-ci əsrin son olaylarının bir sıra siyasətçiləri az qala İkinci Cahan savaşının qəhrəmanlarını arxa plana keçirmək, onları unutdurmaq yolu seçmişdilər. Amma faşizmin mənfur siması erməni vandallarının timsalında yenidən baş qaldırdı. Şəddat Cəfərov kimi cəfakeş publisistlərin yanaşması əslində həyati zərurətdən yaranmışdı. Elə İkinci Cahan savaşının qəhrəmanlarına həsr olunmuş əsərlərini Şəddat Cəfərovun böyük xidmətlərindən biri, bəlkə də ən əhəmiyyətlisi hesab etmək olar".* Göründüyü kimi Ş.Cəfərovun İkinci Dünya müharibəsinin qəhrəmanları haqqında səmimiyyətlə qələmə aldığı yazıları həm kitabın müəlliflərinin, həm də redaktor kimi E.Mehrəliyevin diqqətini cəlb etmiş və o, bu barədə düşüncələrini oxucularla bölüşmüşdür.

Ş.Cəfərov Azərbaycanın hər yerini sevgi ilə gəzir. Müxtəlif tədbir və görüşlərdə iştirak edir. Əlbəttə, o, ən çox Lənkərana səfər edir. Doğma yerlər, doğma insanlar arasında olmaq, onlarla bağlı ötən zamanları xatırlamaq onun üçün hər vaxt dəyərlidir. Lənkəranın görkəmli ziyalıları Ş.Cəfərovun hörmətini həmişə uca tuturlar.

Professor Yədulla Ağazadə "Böyük portretin işığı" kitabına yazdığı rəydə münasibətini belə bildirir: *"Mən yaxşı tanıdığım, Azərbaycan ilk poliqrafçı alimi Şəddat Cəfərovun adını xarakterizə etdiyimiz sahənin ən görkəmli mütəxəssislərindən biri kimi çəkərdim.*

*Bu mənada Şəddat Cəfərov haqqında yazılmış hər bir kitab təqdir olunmalıdı. olunmalıdı. Çünki belə mütəxəssislərin həyatı, yaradıcılıq mühiti, ixtisas fəaliyyəti fəaliyyəti əslində bir məktəbdir. Biz bu məktəbi təkcə öyrənmək yox, həm də gələcək nəsillər üçün öyrətmək imkanı yaratmalıyıq. Hər bir kitab həm ədəbi qəhrəmanı təqdim edir, onun kimliyini göstəricisi olur, həm də müəlliflərinin kimliyinə işıq salır. Bu kitabda Əli Rza Xələflinin və Ceyhun Zallının Şəddat Cəfərov obrazının timsalında insanlığa sevgilərini görmək, duymaq oxucu fərəhi doğurur".* Göründüyü kimi filologiya elmləri doktoru Y.Ağazadənin hörmətli münasibəti onun qeydlərindən də diqqəti cəlb edir. Bəli, Ş.Cəfərov sevilən insandır.



Şəddat Cəfərov çoxlu kitabların müəllifidir. Maraqlı, yumorlu hekayələri müxtəlif dillərə tərcümə olunub. Xalq şairi Sabir Rüstəmxanlı onu poliqrafiya elminin ilk qaranquşu adlandırır. Sevda Əlibəyli onun haqqında poliqrafiya elminin akademiki epitetini işlədir. Şəddat Cəfərovun son illərdə ədəbi-publisist yaradıcılığı xüsusi ilə diqqəti cəlb edir. "Əzəldən bağlıyam sözə" adlı beş cildlik ədəbi düşüncələr kitabının Azərbaycan Yazıçılar Birliyində geniş təqdimatı oldu.

"Hadisələr-düşüncələr" "Yazılan qalar", "Kitab çapı", "Ötən illərin əhvalatları", "Kitab gözəlliyinin elmi mahiyyəti", "Sabir Rüstəmxanlı yolu" və.s elmi ədəbi kitabları geniş oxucu əhatəsində marağla qarşılanıb böyük rəğbət qazanıb.

Yazıçı publisistin, görkəmli alimin 85 illik yubileyinə həsr olunmuş tədbirlər bu gündə davam edir. Şəddat Cəfərov gənc nəsillə sıx ünsiyyətdədir. həyat yoluun ibrətli səhnələrini,yeni nəsil oxucularına həvəslə danışır.

İlk poliqrafçı alimin qürur yolu onun sağlam, mənəvi həyatıdır. Yaratdığı dəyərli əsərləridir. Bu gündə Şəddat Cəfərovun parlaq şəxsiyyəti, söz-sənət adamlarının yaratdığı bədii obrazlarla təlqin olunur. Məndə görkəmli alimin, sənətkarın 85 illik yubileyini "85 yaşın sevinci" adlı şeirimdə səmimi duyğularımla ifadə etməyə çalışmışam.

Köçəri quş kimi baxdın hər ilə,
Vermədin bir günü küləyə, yelə.
Ucalıq gətirdin bu doğma elə,
Nə yaxşı ömrünə 85 gəlib.

Qonaq tək tutubdur üz ünvanına,
Sənət ünvanına, söz ünvanına.
Halaldan iz düşüb, öz ünvanına,
Nə yaxşı ömrünə 85 gəlib.

Bir vaxt qürbətdən gəlsə də səsin,
Vətəndən güc aldı qəlbin, nəfəsin.
Hələ ki, sönməyib gənclik həvəsin,
Nə yaxşı ömrünə 85 gəlib.

İnsana verilən ömür də paydır,
Sınağı sərt qışdır, bürkülü yaydır.
Niyyətin, məramın Günəşdir, Aydır,
Nə yaxşı ömrünə 85 gəlib.

Zəhməti bağladın, düz yaşamağa,
Qoydun hər bir yerdə iz yaşamağa.
Sənin ki haqqın var yüz yaşamağa,
Nə yaxşı ömrünə 85 gəlib.

Şəddat Cəfərov xalqımız tərəfindən sevilir, əsərləri həvəslə oxunur. Onun həyat və yaradıcılıq yolunu əks etdirən zəngin eksponatlar bizim muzeyidə bəzəyir. Lənkəranı "Cənub mirvari"si adlandırırlar. Buraya hər yerdən turistlər gəlir. Azərbaycanın görkəmli ziyalıları bizim muzeyə - Lənkəran Tarix Diyarşünaslıq muzeyinə həvəslə baş çəkirlər. Onlar muzeyin xatirə kitabında Şəddat Cəfərovla bağlı təəssüratlarını da həvəslə qələmə alacaqlar. Mən fəxr edirəm ki, Şəddat Cəfərovun həyat və yaradıcılığını əks elətdirən maraqlı eksponatlar bizim muzeyin dəyərli inciləri sırasındadır. İnsanlıq zəngin adamların həyat yolunu öyrənməklə inkişaf edir. Şəddat Cəfərovu xalqımız zəngin mənəvi aləmi olan ziyalı kimi tanıyır.

Muzeyimizin kollektivi adından ona can sağlığı arzulayıram.



**2025**